Dr. Yusif ibn Əbdürrəhman ər-Rəşid

# İSLAM DİNİNİN ALİ MƏQSƏDLƏRİ

Tərcümə edən

*Əbu Zeyd Həbibli*

# İSLAM DİNİNİN ALİ MƏQSƏDLƏRİ

***Müəllif:***
Dr. Yusif ibn Əbdürrəhman ər-Rəşid

***Tərcümə edən:***
Əbu Zeyd Həbibli

***Redaktə:***
Sevinc Qocayeva

© Kitabın bütün hüquqları qorunur

بسم الله الرحمن الرحيم

# İSLAM DİNİNİN ALİ MƏQSƏDLƏRİ

Hər dinin mənsubları öz dinləri haqqında kitab və məqalələr yazdıqları, habelə dinlərinin əsaslarını insanlara izah etdikləri üçün biz müsəlmanların da bunu etmək hüququmuz vardır. Çünki dinimizin bəşəriyyətin xoşbəxtliyini özündə ehtiva etdiyinə, habelə sağlam ağıl və düşüncəyə müvafiq olduğuna əminik. Bu səbəbdən İslam dininin əsas və ali məqsədlərini öyrənmək istəyən kəslər üçün bu kiçik risaləni qələmə almağı məqsədəuyğun bildik və mövzunun çox uzanmaması üçün risaləni mümkün qədər müxtəsər, habelə mürəkkəblikdən tamamilə uzaq, asan bir üslubda yazdıq. Ümid edirik ki, hörmətli oxucu ədalətli olacaq və İslam haqqında qərəzsiz davranacaqdır.

İstər səmavi dinlər olsun, istərsə də qeyriləri, fərq etməz, bütün dinlərin öz davamçılarına təbliğ etdikləri və onların nail olmalarına səy göstərdikləri qayə və hədəfləri vardır. Allah tərəfindən göndərilmiş şəriətlər aralarındakı zaman ayrılığına və ortaya çıxdıqları mühitlərin müxtəlifliyinə baxmayaraq, hamısı insanlığın xeyir və səadətini hədəf alan ortaq məqsədlər ətrafında birləşmişdir. Uca Allah Özünün təyin etdiyi və bəzilərini də insanlara bəyan etdiyi müəyyən səbəblərə əsasən, İslam şəriətinin sonuncu şəriət və Muhəmmədin ﷺ də sonuncu peyğəmbər olmasını istəmişdir. Belə ki, İslamdan sonra heç bir din olmayacaq və Muhəmməddən ﷺ sonra da heç bir elçi və peyğəmbər göndərilməyəcəkdir.

Məlumdur ki, insanları özünə tabeçiliyə və imana səsləyən həqiqi dinin zəruri olan şərtlərindən biri də ümumi məqsədlərini və hədəflərini insanlara qaranlıq qalmayacaq şəkildə dəqiq formada təyin etməsidir. Həqiqi dinin hədəf və məqsədləri bütün insanların xoşbəxtliyinə xidmət etməli və hər əsrdə əməl edilməyə əlverişli şəkildə olmalıdır. Bəzi insanları məmnun edəcək və kimlərinsə bədbəxtliyinə səbəb olacaq, habelə hansısa bir dövrdə əməl edilməsi çətin və mümkünsüz formada olmamalıdır.

Gəlin əsli mənbələrindən İslamın həqiqətləri ilə tanış olaq, bu din barədə onun həqiqətlərini bilməyən insanların dedikləri sözləri bir kənara qoyaq və bu dinin ali məqsədlərinə və əsas hədəflərinə dərindən bir nəzər yetirək, baxaq görək İslam dinində həqiqi və doğru olan dinin şərtləri mövcuddurmu? Yəni İslam dini hədəf və məqsədləri tam aydın və hər dönəmdə tətbiq edilməyə əlverişli olan, habelə istisnasız olaraq bütün bəşəriyyətin səadətini təmin edə biləcək bir dindirmi?

Hörmətli oxucu, İslam dininin ali məqsədlərindən bəzilərini sənə təqdim edirəm:

# YARADANIN VARLIĞININ İSBATI

İslamın insanlara anlatmaq istədiyi ilk şey kainatı yaradanın varlığını isbat etməkdir. Şübhəsiz ki, var olan hər şeyin var edəni olmalıdır. Mövcud olmayan olan bir şey öz-özünü var edə bilməz. Bu əsrarəngiz kainat və onun içində olan bu qədər mükəmməl varlıqlar əzəmətli bir yaradanın mövcudluğuna açıq bir dəlildir. Həmin yaradan da aləmlərin Rəbbi olan Uca Allahdır.

Uca Allah buyurur: *"De: "Əgər bilirsinizsə, deyin görüm yer və onun üstündə olanlar kimindir?" Onlar mütləq: "Allahındır!" – deyə cavab verəcəklər. De: "Bəs düşünüb ibrət almayacaqsınız?" De: "Yeddi göyün Rəbbi və əzəmətli Ərşin Rəbbi kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs qorxmursunuz?" De: "Əgər bilirsinizsə, deyin görüm hər şeyin hökmü əlində olan, himayə edən, Özünün isə himayəyə ehtiyacı olmayan kimdir?" Onlar: "Allahdır!" – deyəcəklər. De: "Bəs necə olur ki, aldanırsınız?"*[1]

Digər ayədə belə buyurur: *"De: "Göylərin və yerin Rəbbi kimdir?" De: "Allahdır!" De: "Siz Onu qoyub özlərinə nə bir fayda, nə də bir zərər verməyə qadir olmayanlarımı özünüzə dost tutursunuz?" De: "Korla görən eyni ola bilərmi? Yaxud zülmətlə nur eyni ola bilərmi?" Yoxsa onlar Allaha, Onun yaratdığı kimi yaradan şəriklər tapdılar və bu yaratma bir-birinə bənzər göründü? De: "Hər şeyi yaradan Allahdır. O, Təkdir, hər şeyə Qalib gələndir".*[2]

Hər şeyin xaliqi – yaradanı Uca Allahdır və ibadət olunmağa layiq olan da məhz Odur. İslam dini Uca Allaha qulluq və ibadət məqamını hər cür xurafatdan və batil fikirlərdən təmizləmişdir. Allah tək və şəriksiz olan, heç bir şeyə ehtiyacı olmayan, doğmayan və doğulmayan, heç bir varlığa bənzəri olmayandır. O hər şeyi eşidən, görən, hər şeyə qadir olan, sonsuz hikmət sahibi,

---

[1] Əl-Muminun, 84-89.
[2] Ər-Rəd, 16.

əzəmətli, gözəl və izzətlidir. Kainatı və həyat üçün zəruri olan hər şeyi yaradan Odur. Bəndələr dua və ibadətlərində, ümid və mütilik içərisində yalnız Ona üz tutmalı, yalnız Onun əzabından çəkinməli və yalnız Onun bəxş edəcəyi savabı ummalıdırlar. Güc sahibi olan elə bir kəs yoxdur ki, Uca Allahın gücü və qüdrəti onun üstündə olmasın. Ondan başqasına ibadət edilməz, Ondan başqasından qorxulmaz.

Gərək bütün insanlar Ona qul, Ondan başqasının önündə isə kölə deyil, azad, izzətli və şərəfli olsunlar. Əgər onlar yalnız Yaradanın önündə zəlil və yalnız Ona qul olsalar, o zaman digərlərinin önündə azad, şərəfli və izzətli olarlar, hörmətlə verər, ləyaqətlə alarlar, qayda-qanuna tabe olar və haqqa qulluq edərlər.

# BÜTÜN PEYĞƏMBƏRLƏRƏ İMAN ETMƏK

İslamın insanlara anlatmaq istədiyi və təbliğ etdiyi əsaslardan biri də ilk rəsuldan sonuncu elçi olan Muhəmmədə ﷺ qədər bütün peyğəmbərlərə iman etmək, onları təsdiqləmək, sevmək və onların hamısının qardaş olduğunu bilməkdir. Bu səbəbdən də İslam dini bu məsələni Uca Allaha imandan sonra ikinci dərəcədə zikr etmişdir.

Uca Allah buyurur: *“Deyin: Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, Rəbbi tərəfindən (bütün) peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!”*[1]

Hətta Quran Musa عليه السلام peyğəmbəri alçaltmaq istəyən kəslərə belə cavab vermişdir: *“Ey iman gətirənlər! Musanı incidən şəxslərə oxşamayın. Allah onu onların dediklərindən təmizə çıxartdı. O, Allahın yanında çox hörmətli bir şəxsdir”.*[2]

Həmçinin İsa peyğəmbər عليه السلام barədə belə demişdir: *“Körpə dil açıb dedi: Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. Həm də məni anama qarşı qayğıkeş etdi, məni lovğa və bədbəxt etmədi”.*[3]

Uca Allah İsanın عليه السلام anası Məryəmi Qurani-Kərimdə belə müdafiə etmişdir: *“Həmçinin ismətini qoruyan İmran qızı Məryəmi də misal çəkdi. Biz libasının yaxasından ona Öz ruhumuzdan üfürdük. O, Rəbbinin sözlərini, Onun kitablarını təsdiq etdi və itaət edənlərdən oldu”.*[4]

---

[1] Əl-Bəqərə, 136.
[2] Əl-Əhzab, 69.
[3] Məryəm, 30-32.
[4] Ət-Təhrim, 12.

Uca Allah peyğəmbərlərin hamısına və onlara nazil olmuş kitablara iman etməyi əmr etmiş, onların arasında fərq qoymağı, onlardan kimisə yalanlamağı və onlara təhqir etməyi qadağan etmişdir. Çünki onların hamısı Uca Allahın sadiq – doğru sözlü elçiləridir.

# İNSANLARIN YARADILIŞ QAYƏSİ

İslam dini insanlara boş və əbəs yerə yaradılmadıqlarını təbliğ etməkdədir. Bu, İslamın ali məqsədlərindən biridir. İnsan həyatı heç bir məqsədə qulluq etməyən mücərrəd doğumdan, uşaqlıq, gənclik, orta yaş, qocalıq dövrlərindən və nəhayət, mücərrəd ölümdən ibarət deyildir.

Uca Allah buyurur: *"Yoxsa elə hesab edirdiniz ki, sizi əbəs yerə yaratmışıq və siz heç vaxt Bizə qaytarılmayacaqsınız?"*[1]

Başqa bir ayədə belə buyurur: *"Məgər insan elə güman edir ki, o, başlı-başına buraxılacaq?!"*[2]

Uca Allah məxluqatın yaradılışında olan qayənin Ona ibadət və itaət olduğunu bəyan edərək buyurur: *"Mən insanları və cinləri yalnız Mənə ibadət etsinlər deyə, xəlq etdim".*[3]

İbadət – Uca Allahın sevib razı qaldığı hər bir əməldir və həyatın bütün sahələrini özündə ehtiva edir.

Dünya həyatı insan üçün, sadəcə olaraq, bir imtahan yeridir. Kim Rəbbinə itaət üzrə həyat sürərsə, dünya səadətinə və Cənnətdə sonsuz nemətlərə nail olar, Rəbbinə itaət etməkdən boyun qaçıranları isə Qiyamət günü şiddətli cəza gözləyir. İslam dini insanları bu həqiqət üzrə tərbiyələndirməkdədir. Dünya həyatı nə qədər uzun görünsə və nə qədər çətin, məşəqqətli və keşməkeşli olsa da, aqil insan ölümdən sonrakı əbədi Cənnət həyatı naminə bu dünyada Rəbbinə itaət üzrə həyat sürməyə davam edir. Elə bu səbəbdən də İslam dini insanın həyatını nizamlamış, onun alqı-satqı, mühakimə işləri, evlilik həyatı, cəmiyyətdaxili əlaqələri və həyatının digər sahələri üçün qayda-qanunlar təyin etmişdir.

---

[1] Əl-Muminun, 115.
[2] Əl-Qiyamə, 36.
[3] Əz-Zəriyət, 56.

## ARADA HEÇ BİR VASİTƏÇİ OLMADAN İNSANLARI UCA YARADANA BAĞLAMAQ

İslamın əsas qayələrindən biri də insanın nəfsinin təmizliyinə, ruhunun Rəbbinə ibadət vasitəsilə və birbaşa xaliqinə bağlanması ilə saflığına nail olmasıdır. İnsanlara arada heç bir vasitəçi olmadan birbaşa Allaha ibadət etmələri əmr edilmişdir. Müsəlman olan kəs öz ibadətlərində Rəbbinə yönəlir, Ona əl açır, dua edir, Ondan bağışlanma diləyir və bilir ki, Uca Allah arada heç bir vasitəçi – mələk, peyğəmbər və s. olmadan onu görür və eşidir.

Uca Allah buyurur: *"Qullarım səndən Mənim barəmdə soruşsalar, Mən onlara yaxınam, dua edib Məni çağıranın duasını qəbul edərəm. Qoy onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər ki, doğru yola yönələ bilsinlər"*.[1]

Başqa bir ayədə belə buyurur: *"Rəbbiniz dedi: Mənə dua edin, Mən də sizə cavab verim"*.[2]

Müsəlmanlar Uca Allaha yalnız bir formada ibadət edirlər, yəni dində öndə gedənin sıravi birindən fərqlənən xüsusi bir ibadət şəkli, habelə ondan üstün və fərqli yönü yoxdur. Bir müsəlmanın digər müsəlmana qarşı olan üstünlüyü yalnız və yalnız Allaha olan yaxınlığında, ibadətlərini gözəl və kamil bir şəkildə icra etməsindədir.

Uca Allah buyurur: *"Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır"*.[3]

Həmçinin İslam şəriəti günaha yol verən müsəlmanın Rəbbinə tövbə etməsini əmr etmişdir. Tövbə – işlədiyi günaha görə

---

[1] Əl-Bəqərə, 186.
[2] Ğafir, 60.
[3] Əl-Hucurat, 13.

peşmançılıq duyub Allahdan bağışlanma diləmək, zülm etdiyi kəsin haqqını qaytarmaq və bir daha həmin günaha qayıtmamaq əzmində olmaqdır. Tövbə etmək üçün kiminsə önündə günahı etiraf etməyə və s. bu kimi əməllərə lüzum yoxdur. Tövbə qul ilə Rəbbi arasındadır. Uca Allah bəndəsinin sadiq olub-olmadığını bilir və istədiyi qulunu əfv edir.

Peyğəmbər ﷺ demişdir: *“Bir insan günah işləyər və “ey Rəbbim, mən asiliyə yol verdim, keç günahımdan” deyərsə, Uca Allah da belə buyurar: Qulum asiliyə yol verdi və bildi ki, onun günahları bağışlayan Rəbbi var. Elə isə mən artıq qulumu əfv etdim”.*[1]

---

[1] Buxari, 7507.

# İNSAN ÜÇÜN ZƏRURİ OLAN BEŞ AMİLİN QORUNMASI

İslam dini bəşər övladının haqq və hüquqlarını təmin etməyi, onun həyatına, sağlamlığına, ağlına, mülkünə, namusuna və dininə diqqət və qayğı göstərərək insan həyatının zəruri və təməl əsaslarını qorumağı önünə məqsəd qoymuşdur.

Demək olar ki, İslamın əksər hökmləri məhz bu zəruri və təməl əsasları tam və kamil bir şəkildə hifz etmək üçün təyin edilmişdir.

Belə ki, İslam dini insanın can əmniyyətini qorumağı əmr etmiş və bunun müqabilində insan həyatı üçün təhlükə təşkil edən hər bir zorakılıq və təcavüzü qadağan etmişdir. Bu barədə Uca Allah belə buyurur: *“Öz əllərinizlə özünüzü təhlükəyə atmayın. Yaxşılıq edin! Həqiqətən, Allah yaxşılıq edənləri sevir”.*[1]

İslam dini ağıl və zehni inkişaf etdirən şeylərə icazə vermiş, narkotik maddələri və ağlı başdan çıxaran digər sərxoşedici içkiləri isə qadağan etmişdir.

İslam dini ticarət və digər qanuni yollar ilə mal dövriyyəsini genişləndirməyi icazəli saymış, oğurluq və s. yollarla insanların mallarını haqsızcasına mənimsəməyi isə qadağan etmişdir.

Həmçinin insanın evlilik yolu ilə zövq və rahatlıq əldə etməyini, nəsil sahibi olmasını qanuniləşdirmiş, bunun müqabilində isə zina kimi nəsillərin qarışmasına səbəb olan amilləri qadağan etmişdir.

Peyğəmbər ﷺ belə demişdir: *“Sizdən birinizin qanı, mülkiyyəti və namusu digərinə haramdır (yəni toxunulmazdır)”.*[2]

---

[1] Əl-Bəqərə, 195.
[2] Tirmizi, 3087.

# YÜKSƏK ƏXLAQİ KEYFİYYƏTLƏRƏ TƏŞVİQ

İslam dininin əsas prinsiplərindən biri də cəmiyyət üçün yüksək əxlaqi keyfiyyətlər əsasında nümunəvi insan yetişdirməkdir. Bu səbəbdən də İslam dini insanları gözəl əxlaqa səsləmiş və onları pis əxlaqdan çəkindirmişdir.

İnsanları çətinliklərə və əziyyətlərə qarşı dözümlü, səbirli olmağa, doğruluğa, adilliyə, təvazökarlığa, iffətli, həyalı, mərhəmətli, əliaçıq və insanlara qarşı yardımsevər olmağa, əmanəti qorumağa təşviq etmiş, zülmdən, xəyanətdən, yalandan, hiylə və kələkbazlıqdan, həsəd və paxıllıqdan, tənbəllikdən və acizlikdən, söyüşcül olmaqdan, zorakılıqdan, zəif və gücsüzləri aşağılamaqdan, onlara xor baxmaqdan çəkindirmişdir.

İslam dini gözəl əxlaq sahibi olan kəslərə böyük əcr vəd etmişdir. Belə ki, Peyğəmbərimiz ﷺ Cənnəti əldə etmək üçün ən əsas amilin iki şey: *"Allaha qarşı təqvalı olmaq və gözəl əxlaq"* olduğunu bəyan etmişdir.[1]

Həmçinin İslam dini hər bir insana valideynlərinin, övladlarının, həyat yoldaşının, qohum-əqrəbasının və qonşularının haqlarına riayət etməsini əmr etmiş, habelə ətraf mühitin və heyvanların da haqları olduğunu bildirmişdir.

---

[1] Tirmizi, 2004.

# YAXŞILIQ ETMƏKDƏ VƏ TƏQVAYA SƏBƏB OLAN İŞLƏRDƏ YARDIMLAŞMAQ

İslam dini insanın mənəvi duyğular üzərində yetişməsinə, insanlarla düşmənçilik və asilik üzərində deyil, xeyir əməllərdə və təqvaya səbəb olacaq işlərdə yardımlaşmasına, beləcə içində yaşadığı cəmiyyətə qarşı biganə olmamasına önəm vermişdir.

Uca Allah bu barədə buyurur: *“Yaxşılıq etməkdə və təqvaya səbəb olacaq işlərdə bir-birinizə yardım edin, günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın!”*[1]

Müsəlman birinin yaşadığı cəmiyyətdə xeyirxah şəxs olması onun əməllərini tənzimləyən hər hansısa bir qanuna və ya ona nəzarət edən hansısa bir dövlət orqanına görə deyildir. Əksinə, o bütün bunları hər şeyi görən, aşkarda və gizlində olanları bilən, hər şeyə nəzarət edən Allaha görə etmişdir. Çünki bu, Uca Allahın əmridir. O Allah ki xəyanətkar baxışlar və qəlblərdə olanlar Ona gizlin deyildir. Son dönüş yerimiz Onadır və Qiyamət günü önündə hesab verəcəyimiz də məhz Odur. Belə ki, O bu dünyada işlədiyi əməllərinə görə insan övladını hesaba çəkəcəkdir. Kim saleh əməllərin sahibi olubsa, bu onun lehinə, kim də pis əməllərə qurşanıbsa, bu da onun əleyhinə olacaqdır. Heç şübhəsiz ki, Uca Allah bəndələrinə zülm etməz.

İslam dini insanları elə şəkildə tərbiyələndirir ki, onlar məhz Rəblərinin rizası naminə həm gizlində, həm də aşkarda daima eyni hal və əxlaq üzərində olsunlar və insanlardan hali olduqda, yaxud nəzarətsiz qaldıqda asiliklərə və pis əməllərə meyil etməsinlər. Çünki müsəlman daima Uca Allahın nəzarəti altında olduğunun fərqindədir.

---

[1] Əl-Maidə, 2.

# QADINLARA QARŞI SAYĞI VƏ HÖRMƏT

İslamın uca tutduğu ali dəyərlərdən biri də qadınlara qarşı sayğılı davranmaqdır. İslam dini qadınların cəmiyyətdən təcrid edildikləri və özlərinə heç bir dəyər verilməyən bir dövrdə gəlmişdir. Həmin dövrdə bəzi dinlər qadını bəşər övladının Cənnətdən çıxarılmasının əsas səbəbkarı, digərləri isə murdar hesab edirdilər.

Belə bir ab-havada İslam dini gəldi və qız övladına, həyat yoldaşına, anaya və bacıya hörmət etməyi əmr etdi, habelə qadının əlindən alınmış haqlarını ona qaytardı. İslam dini qadını məhz kişilərin şəhvani ehtiyaclarını ödəyəcək ucuz bir alət olmaqdan, hər növ zəlillikdən və rəzillikdən qorudu, qadına sayğılı davranmağı və yaxşılıq etməyi əmr etdi.

Uca Allah belə buyurur: *“Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr xəlq etməsi, aranıza məhəbbət və mərhəmət yaratması da Onun dəlillərindəndir. Həqiqətən, bunda düşünənlər üçün ibrətamiz dəlillər vardır”.*[1]

Peyğəmbər ﷺ demişdir: *“Qadınlarla əlaqəli nəsihətimi qəbul edin və onlarla yaxşı davranın!”*[2]

Digər rəvayətdə isə belə demişdir: *“İçinizdə ən xeyirli olan kəs öz yoldaşına qarşı yaxşı rəftar edəndir. Mən də içinizdə öz ailəsinə qarşı ən yaxşı rəftar edəninizəm”.*[3]

İslam peyğəmbəri Muhəmməd ﷺ Cənnətin məhz anaların ayaqları altında olduğunu bildirmişdir.[4] Yəni analara itaət etmək, onların qayğılarını çəkmək və onlara qarşı xeyirxah övlad olmaq Cənnət nemətini əldə etmək üçün ən böyük səbəblərdən biridir.

---

[1] Ər-Rum, 21.
[2] Müslim, 3720.
[3] Tirmizi, 3895.
[4] İbn Macə, 2781.

İslam dini kişini qadından üstün etməmişdir. Əksinə, Uca Allahın yanında qadın, kişi – hər kəs eynidir. Allaha ən yaxın olan kəs isə Ona qarşı daha çox itaətkar və daha çox dindar olan kəsdir.

Uca Allah buyurur: *“Mömin olaraq yaxşı iş görən kişi və qadınlara əlbəttə gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq”.*[1]

İslam dini qadın-kişi əlaqələrini tənzimləmiş, evlilik, doğum, südvermə, övladlara baxma, onlara qayğı göstərmə, tərbiyə vermə və zərurət yaranacağı təqdirdə boşanma kimi ailədaxili işlərə dair nizam-intizam qoymuşdur.

[1] Ən-Nəhl, 97.

## ƏDALƏT VƏ SEVGİ PRİNSİPLƏRİ ƏSASINDA CƏMİYYƏT QURMAQ

İslam dininin ali məqsədlərindən biri də cəmiyyətlərin xeyirxahlıq, qarşılıqlı yardımlaşmaq, sevgi və ədalət prinsipləri əsasında qurulmasını təmin etməkdir. Müsəlman cəmiyyəti zalımın zülmünə mane olmağı və məzluma yardım etməyi önünə məqsəd qoymuşdur. İslam prinsipləri əsasında qurulan cəmiyyətlərdə zalımın əlindən vurular, məzlumun haqqı isə özünə geri qaytarılar. İslam cəmiyyətində qonşusu aclıqdan öldüyü halda zənginliyin keyfini çıxaran, hətta malını həyətindəki itinə xərcləyən "zəngin" anlayışı olmadığı kimi, kasıblıq səbəbilə oğurluğa və digər cinayətlərə əl atan və beləcə cəmiyyətin əmin-amanlığına xələl gətirən "kasıb" anlayışı da yoxdur. Əksinə, zənginlərin malı üzərində kasıbların şəriət tərəfindən təyin edilmiş haqqı vardır və bu haqq onlara heç bir minnət qoyulmadan ödənilməlidir. Əgər bu haqqı ona ödəyəcək kəs olmazsa, o zaman müsəlman cəmiyyətinin həmin kasıba normal şəkildə yaşaya bilməsi üçün yardım etməsi vacib olar. İslam dininin əmr etdiyi vətəndaş cəmiyyəti bax budur! Xeyirxah əməllərdə və təqvaya səbəb olan işlərdə bir-biri ilə yardımlaşan, asiliklər və düşmənçilik üzərində isə bir-birinə kömək etməyən, Uca Allaha qarşı itaətkar olan, qadağan etdiyi şeylərdən isə çəkinən və uzaq duran bir cəmiyyət!

İslam dini hər bir məsuliyyət sahibinə yaxınlarının əleyhinə olsa belə, insanlar arasında adilliklə rəftar etməyi əmr etmişdir. Peyğəmbər ﷺ keçmiş qövmlərin adilsizliyi haqda belə demişdir: *"Onların arasında nəsil-nəcabətli birisi oğurluq etdikdə onu azad buraxar, zəif birisi oğurluq etdikdə isə onu cəzalandırardılar..."* Daha sonra Allah rəsulu ﷺ and içərək deyir ki, əgər qızı Fatimə də oğurluq etsəydi, onu da əfv etməz, mütləq cəzalandırardı.[1]

[1] Nəsai, 4902.

İslam cəmiyyətində nazir övladı ilə qeyrisi arasında hüquq və vəzifələr baxımından heç bir fərq yoxdur. Əksinə, cəmiyyətin hər bir üzvü qanunlar önündə bərabərhüquqlu olmalıdır.

Uca Allah buyurur: *“Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi və qohumlara haqqını verməyi əmr edir, iyrənc işlər görməyi, pis əməllər törətməyi və azğınlıq etməyi isə qadağan edir. Sizə düşünüb ibrət alasınız deyə, bu cür öyüd-nəsihət verir”.*[1]

İslam dini cəmiyyətin inzibati işlərini təşkil etmiş, hər vəzifə sahibinə insanlara ən gözəl şəkildə xidmət etməsini və daima cəmiyyətin maraqlarını özünün şəxsi maraqlarından önə çəkməsini əmr etmiş, insanların ictimai və özəl işlərini idarə edən kəslər üçün qayda-qanunlar təyin etmişdir.

Peyğəmbər ﷺ demişdir: *“Hər biriniz məsuliyyət sahibisiniz və məsul olduğunuz kəslərə görə cavabdehsiniz”.*[2]

Uca Allah ailəsində övladlarını, iş yerində işçilərini və digər məsul olduğu şəxsləri aldadan kəslərə Cənnəti haram etmiş və bu barədə Onun rəsulu ﷺ belə demişdir: *“İnsanların işlərinə cavabdeh olduğu halda, məsul olduğu insanları aldadaraq bu dünyadan köçən hər bir kəsə Uca Allah Cənnəti haram etmişdir”.*[3]

---

[1] Ən-Nəhl, 90.
[2] Buxari, 893.
[3] Müslim, 380.

# BÜTÜN DÜNYADA ƏMİN-AMANLIĞIN BƏRQƏRAR OLMASI

İslam qardaşlığı çərçivəsində bütün dünyada əmin-amanlığı bərqərar etmək bu dinin ali məqsədlərindən biridir. Çünki möminlər qardaşdırlar, onlar öz aralarında yaxşı işlər görməyi əmr edər, pis əməllərdən isə çəkindirərlər. Dünyanın müxtəlif bölgələrində yaşamalarına baxmayaraq, müsəlmanların hamısı bir qəlb kimi eynidir. Onlar öz aralarında olan dil, irq, millət, rəng, mal-dövlət və bu kimi müxtəlif fərqləri aradan qaldıracaq və tamamilə yox edəcək bir şəkildə bir-birlərinə sevgi və məhəbbət bəsləyərlər.

Bu din mərhəmət və bərəkət dinidir. Bu din öz ardıcıllarına insanlara qarşı xoşməramlı olmağı, onlarla gözəl tərzdə rəftar etməyi əmr edən, hər kəsin bir ailə kimi yaşaması üçün qardaşlıq, həmrəylik və yardımlaşma ruhunu aşılayan, təbəqələşməni, kasıblara və zəiflərə xor baxmağı, onları aşağılamağı qadağan edən bir dindir.

Peyğəmbər ﷺ demişdir: *“Möminlər bir-birinə qarşı sevgi, sayqı, mərhəmət və məhəbbət bəsləməkdə bir bədən kimidirlər. Belə ki, bədənin bir üzvü ağrıdıqda digər bədən üzvləri də bu ağrıya qızdırma və yuxusuzluqla qarşılıq verərlər”.*[1]

Digər hədisdə isə Peyğəmbər ﷺ barmaqlarını bir-birinə keçirərək belə demişdir: *“Mömin digər bir mömin üçün bina kimidir; bir hissəsi digər hissəsini tutub saxlayar”.*[2]

Qeyd etdiyimiz bu İslam qardaşlığının və bu qardaşlığın təsiri nəticəsində millətlər və xalqlar arasında daimi sülhün, əmin-amanlığın yayılmasının ən böyük təzahürlərindən biri də Həcc ibadəti, yəni dünya müsəlmanlarının böyük konfransıdır. Bu ibadət sayəsində heç vaxt bir-birlərini görməmiş insanlar arasında tanışlıq

---

[1] Müslim, 6751.
[2] Buxari, 2446.

əmələ gəlir, eyni amal və mənfəət naminə hamının sözü və atılan addımlar bir olur. Belə ki, zəngin, kasıb, gənc, qoca, kişi və qadın demədən milyonlarla fərqli irqdən olan insanlar bir yerə toplanır və eyni anda bir olan Allaha ibadət edirlər. Uca Allaha etdikləri ibadət istisna olmaqla, onların arasında heç kəsin heç kəsdən mülkünə, vəzifəsinə, irqinə və rənginə görə bir üstünlüyü olmur.

İslam dini yalana, hiylə və zülmə deyil, məhz dürüstlüyə, şəffaflığa, insanlara qarşı xoşməramlı olmağa və hər kəsin hüquqlarının qorunmasına əsaslanan beynəlxalq və humanitar münasibətləri tənzimləyən dəqiq qaydalar təyin etmişdir.

Təbii ki, müsəlman toplumu bütün bunları əyani şəkildə tətbiq etmişdir. Belə ki, Peyğəmbərin ﷺ və əshabının zamanında, habelə onlardan sonrakı dönəmlərdə Mədinə şəhərində, Şam diyarında, Misirdə və digər müsəlman torpaqlarında müsəlman cəmiyyəti içərisində çoxsaylı qeyri-müsəlman toplumlar yaşayırdı. Onların arasında isti münasibət və gözəl qonşuluq əlaqələri hökm sürürdü. Bir-birlərini ziyarət edər, xəstələrinə baş çəkər, nəsihətləşər, öz aralarında alqı-satqı işləri qurar və beləcə müsəlman cəmiyyətində onların bütün hüquqları qorunardı.

# YER ÜZÜNÜN ABADLAŞDIRILMASI

İslam dininin ali məqsədlərindən biri də yer üzünün bəşər övladı tərəfindən abadlaşdırılmasıdır. Bu səbəbdən də Uca Allah bəşər övladını yer üzündə Özünün canişini təyin etmiş və ona yaşam üçün zəruri olan hər şeyi öyrətmişdir.

Uca Allah buyurur: *"Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir canişin təyin edəcəm", – demişdir".*[1] Bu ayədə canişin dedikdə Adəm ﷺ və onun zürriyyəti nəzərdə tutulur.

Uca Allah bəşər övladını yer üzünün canişini təyin etdikdən sonra ona bəxş etdiyi nemətini belə açıqlayır: *"Göylərdə və yerdə olanların hamısını sizin xidmətinizə verən də Odur. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır"*;[2] *"Yeri sizin ixtiyarınıza verən Odur. Onun qoynunda gəzin və Allahın ruzisindən yeyin. Axır dönüş də Onadır".*[3]

Uca Allahın bəşər övladını yer üzünün xəlifəsi təyin etməsinin mənası onu Öz əvəzinə yer üzündə canişin təyin etməsidir. Bu vəzifənin əsas tələblərindən biri də yer üzünün məhz Allahın istədiyi və əmr etdiyi qaydada abadlaşdırılmasıdır. Uca Allahın rizasına vəsilə olan, özündə ədalət prinsiplərini ehtiva edən və öyrənilməsi zəruri olan bu ilahi mənhəc – qayda, üsul bəşər övladının kamil bir şəkildə Rəbbinə itaət etməsini tələb edir.

Uca Allah tərəfindən bəşər övladına yer üzünün idarəçiliyinin verilməsi dünyada olan bütün nemət və sərvətlərin istismarını və istifadəsini də tələb edir. Uca Allah yer üzünün canişininə əkinçiliyi, heyvandarlığı, meşəsalmanı, yağların və mineralların əldə edilməsi qaydasını, mədən və daş ocaqlarının istismarını, şəhərsalmanı, yaşayış və elm ocaqları, xəstəxanalar, zavod və fabriklər tikməyi – bir sözlə, yaşam üçün zəruri olan hər bir şeyi

[1] Əl-Bəqərə, 30.
[2] Əl-Casiyə, 13.
[3] əl-Mulk, 15.

ilham etmiş – öyrətmiş və əmr etmişdir. Heç şübhəsiz ki, bütün bunlar bizə Uca Allahın əzəmətini və qüdrətini göstərməkdədir. Çünki hər canlıya həyatı və yaşam üçün zəruri olan ehtiyacları bəxş edən Odur.

Uca Allah insanı bu işləri mükəmməl öyrənməyə, bu işlərdə məharət sahibi olmağa və bütün bunları ən gözəl şəkildə həyata keçirməyə təşviq etmişdir. Peyğəmbər ﷺ demişdir: *"Uca Allah hər bir şeyi gözəl şəkildə görməyi əmr etmişdir".*[1]

Yer üzünün abadlaşdırılması ilə insanın yaradılış qayəsi olan Uca Allaha ibadət arasında heç bir ziddiyyət yoxdur. Çünki yer üzünün Uca Allahın təyin etdiyi qayda əsasında abadlaşdırılması da elə öz-özlüyündə Uca Allaha ibadət sayılır. Peyğəmbər ﷺ demişdir: *"Əgər Qiyamət qopan vaxt sizdən birinizin əlində bir fidan olsa və onu əkməyə imkanı olsa, qoy əksin!"*[2] Təbii ki, Peyğəmbərin ﷺ bu cür deməsi yer üzünün Uca Allaha məlum olan vaxta – Qiyamət gününə qədər abad qalması üçün insanları ağac əkməyə, su xətti çəkməyə və bu kimi işlərə təşviq etməsinə gözəl bir nümunədir.

---

[1] Müslim, 5167.
[2] Əhməd, 13004.

# ELM VƏ BİLİK ƏLDƏ ETMƏK

İslam dininin ali məqsədlərindən biri də insanların dini, tibb, həndəsə və astronomiya kimi dünyəvi elmləri öyrənmələri, beləcə bəşər mədəniyyətinə töhvə vermələridir. Bu səbəbdən İslam dini insanları nəinki elm təhsil etməyə təşviq etmiş, hətta bunu onlara vacib etmişdir. Qurani-Kərimdə nazil olan ilk ayə də məhz oxumağı əmr edən ayədir: *“Yaradan Rəbbinin adı ilə oxu!”*[1]

İslam dini əldə etdikləri elmə görə alimlərin məqamını digər insanların məqamından daha yüksək etmişdir.

Uca Allah buyurur: *“De: Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?!”*[2] ; *“Habelə sizə: "Qalxın!" – deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah nə etdiklərinizdən xəbərdardır”.*[3]

Heç şübhəsiz ki, ötən əsrlərdə yaşamış müsəlman alimləri tibb, mühəndislik, astronomiya, riyaziyyat, kimya və digər elmlər kimi bir çox elmlərin əsaslarının qoyulmasında böyük rol oynamışlar.

Müsəlmanlar bütün əsrlər boyunca şərqdə və qərbdə (Əndəlüsdə) parlaq mədəniyyətə sahib olublar və avropalılar bundan çox faydalanıblar. Belə ki, onlar öz övladlarını Əndəlüsün məktəblərində, elm ocaqlarında təhsil almaları üçün göndərərdilər.

Müsəlmanlar öz ölkələrinə onların rahat həyatlarını pozan və xoş güzaranlarını əllərindən alan müstəmləkəçilik bəlası daxil olana qədər elmi inkişaflarını və kəşflərini davam etdirirdilər. Həmin müstəmləkəçiliyin izləri hal-hazırkı dönəmdə də qalmaqdadır.

---

[1] Əl-Ələq, 1.
[2] Əz-Zumər, 9.
[3] Əl-Mucədələ, 11.

Buracan qeyd etdiklərimiz İslam dininin insanlara aşıladığı və onlardan tələb etdiyi ali məqsədlərin bir hissəsidir. Beləliklə, ey ədalətli insan, İslamın hədəf və məqsədlərinin tam şəffaf və əhatəli olduğunu görürsən. Əgər İslamı düzgün anlayıb, onu Qurani-Kərimin və Muhəmməd peyğəmbərin ﷺ bəyan etdiyi şəkildə tətbiq etsən və onu özünə rəhbər tutsan, görərsən ki, bu din bütün insanların xoşbəxtliyini təmin edəcək yeganə dindir.

Hörmətli oxucu, bəzi media vasitələrində İslamın həqiqətini bilməyən kəslərin bu din haqda dilə gətirdikləri mənfi fikirlərinə əhəmiyyət vermə! Maraqlıdır, görəsən, bir şeyin həqiqətini bilməyən kəs həmin şey barədə necə söz söyləyə və hökm çıxara bilər?! Bu tip insanların İslam barədə olan bilikləri İslamla heç bir əlaqəsi olmayan televiziya proqramlarından və ya bir-iki qəzetdən aldıqları səhv məlumatlardan ibarətdir. Həmçinin bəzi müsəlmanların (Allah onları doğru yola yönəltsin!) halına da aldanma! Çünki onlar Allahın qoyduğu qayda-qanuna əməl etmədikləri və Onun əmrinə tabe olmadıqları üçün bu dinin mənsublarının nəzərində etibarsız bir nümunəyə çevrildilər. Bu dinin həqiqətini ancaq orijinal mənbələrindən – Qurani-Kərimdən və Peyğəmbərin hədislərindən götürün. Həmin mənbələr isə kamil bir şəkildə qorunmuşdur və öyrənmək istəyən hər kəs üçün əlçatandır. Elə isə bu din barədə dərindən düşün, fikirləş, lakin başqalarının beyni ilə deyil, öz ağlınla fikirləş, daha sonra da özün bu dini mühakimə et!

Ümid edirik ki, İslam dininin ali məqsədləri barədə bu kitabda qeyd olunan müxtəsər məlumatlara göz atan hər kəs həqiqət axtarışlarını davam etdirəcək, kənar təsirlərdən və təəssübkeşlikdən uzaq duracaq, beləcə Uca Allahın izni ilə həqiqəti əldə edəcəkdir.

Uca Allah buyurur: *“Artıq sizə Allahdan bir nur (həqiqət) və açıq-aydın bir Kitab gəldi. Allah Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldər, onları Öz izni ilə zülmətlərdən nura çıxarar və düz yola istiqamətləndirər”.*[1]

---

[1] Əl-Maidə, 15-16.

# MÜNDƏRİCAT

İslam dininin ali məqsədləri........................................................4
Yaradanın varlığının isbatı...........................................................6
Bütün peyğəmbərlərə iman etmək................................................ 8
İnsanların yaradılış qayəsi...........................................................10
Arada heç bir vasitəçi olmadan insanları Uca Yaradana bağlamaq 11
İnsan üçün zəuri olan beş amilin qorunması..................................13
Yüksək əxlaqi keyfiyyətlərə təşviq...............................................14
Yaxşılıq etməkdə və təqvaya səbəb olan işlərdə yardımlaşmaq.....15
Qadınlara qarşı sayqı və hörmət.................................................. 16
Ədalət və sevgi prinsipləri əsasında cəmiyyət qurmaq...................18
Bütün dünyada əmin-amanlığın bərqərar olması............................20
Yer üzünün abadlaşdırılması.........................................................22
Elm və bilik əldə etmək................................................................ 24